BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2014*

UOT 82.0; 82.09

# RÜŞDİYYƏ NƏSRİNDƏ MAARİFÇİLİK

**A.Y.ABUŞOVA**
***Bakı Dövlət Universiteti***
***a.afet_1985@mail.ru***

*Rüşdiyyənin ədəbi irsi Azərbaycan ədəbiyyatının nadir nümunəsi hesab edilir. Onun təmsillərində dərin ictimai məna yükü vardır. "Köpək və çaylan", "Şir və siçan", "Dözümsüz aslan", "İnsan və aslan" kimi təmsillərində artıq tamahın baş yarması, hökmranlığın əbədi olmaması, xalqın mənafeyini şəxsi mənafedən üstün tutmaq kimi qənaətlərə gəlinir. O, 1893-cü ildə Təbrizdə "Rüşdiyyə milli məktəbi"ni açmışdır.*

**Açar sözlər:** təmsil, maarifçilik, gənc nəsil, məktəb, dərslik, hekayə

Mirzə Həsən Rüşdiyyə 1851-ci ildə Təbriz şəhərində dövrün görkəmli alimlərindən olan Molla Mehdinin ailəsində anadan olmuşdur. İbtidai təhsilini Təbrizdə alandan sonra Beyrutdakı Darülmüəllimi məktəbinə daxil olmuşdur. Rüşdiyyə həmin məktəbdə təkcə təhsil almaqla kifayətlənmir, həm də dövrü üçün aktual olan yeni təhsil üsullarını öyrənirdi. Bu işlərin XIX əsrdə çox böyük əhəmiyyəti var idi. Çünki Avropa təhsil proqramları Şərqdəki mədrəsə təhsilindən çox qabağa getmişdi və orta əsr qaydalarına söykənən mədrəsə təhsil sistemi müasir tələblərə cavab vermirdi və yalnız dini ayinlər, bəzi təbiət elmləri sahələrində səthi məlumat verilirdi. Yeri gəlmişkən, qeyd edək ki, XIX əsr Güney Azərbaycan nəsrində həmin təhsilin eybəcərlikləri də öz əksini tapır və onlar barəsində əvvəldə geniş bəhs etdik.

Rüşdiyyə məhz müasir tələblərə cavab verən məktəblərin təsis edilməsi barədə düşünürdü. Bu məqsədlə o, Darülmüəllimində təhsilini bitirəndən sonra 1884-cü ildə Rusiya tərkibində olan Qafqaza, daha doğrusu, indiki Ermənistan ərazisi olan İrəvan xanlığına gəlmiş, burada görkəmli rus pedaqoqu K.D.Uşinskinin pedaqoji irsi ilə tanış olmuşdur. İrəvanda Rüşdiyyənin qardaşı yaşayırdı və o qardaşının köməyi ilə yeni tipli məktəb açıb azərbaycanlı balaları təhsilə cəlb edir. İranın şahı Nəsrəddin Avropa səfərindən qayıdanda İrəvanda olmuş və Rüşdiyyə ilə şəxsən görüşüb ona İranda yeni tipli məktəblər açmağı təklif etmişdir [3].

Onun əsərlərindən yeni məktəb təliminin əsaslarını öyrənən Rüşdiyyə 1887-ci ildə Təbrizə qayıdıb şəhərin Şeşgilan məhəlləsində yeni tipli "Dəbistan" məktəbini açır. Həmin dövrdə hətta dövlət səviyyəsində yeni tipli məktəb-

lərin açılmasına icazə verilirdi və ölkəni idarə edən azərbaycanlı sülaləsi Qacarlar əhalinin maarifləndirilməsi üçün bir çox tədbirlər həyata keçirirdilər. Həmin tədbirlər siyahısında yeni tipli məktəblərin açılması da var idi. Rüşdiyyə 1905-ci ildə "Məktəb" adlı qəzet də nəşr etdirmişdir. Qəzetdə olan Eynüddövlə haqqındakı siyasi materiallara görə onu sürgün edirlər. Məşrutə inqilabından sonra sürgündən qayıdan Rüşdiyyə "Həyati-cariyyə" adlı yeni bir məktəb də açır [3].

Elə həmin tədbirlər layihəsindən yararlanan vətənpərvər ziyalı 1893-cü ildə Təbrizdə başqa bir məktəb – "Rüşdiyyə milli məktəbi"ni açır. Bu məktəb də dərsi yeni üsulla tədris edən məktəblərdən idi. Rüşdiyyəni Azərbaycan xalqının xoşbəxt gələcəyi düşündürürdü və bilirdi ki, xoşbəxt gələcəyə aparan yol müasir məktəblərdən keçir. Böyük Azərbaycan ziyalısı təkcə nəzəri cəhətdən deyil, əməldə də bunları həyata keçirmək istəyirdi. O, təkcə məktəb açmaqla öz işini bitmiş hesab etmir, həm də müasir məktəblər üçün müasir dərsliklərin də vacibliyini başa düşürdü. Ona görə də, Rüşdiyyənin özü 1894-cü ildə "Vətən dili" adlı dərslik çap etdirir və həmin dərslik müasir məktəblərdə tədris olunur [3].

M.H.Rüşdiyyə bilirdi ki, yeni zamanın rəhbərləri də qabaqcıl düşüncəli adamlar olmalıdır. Bu məqsədlə o, siyasi dərnəklərdən biri "Gizli əncümən" təşkilatının üzvü olub, onun siyasi dərnəklərində iştirak edir və sonra siyasi fəaliyyətini genişləndirib "İnqilab komitəsi"nin əsas təşkilatçılarından birinə çevrilir.

Mirzə Həsən Rüşdiyyə ömrünün axırınadək pedaqoji işlərlə məşğul olmuşdur. O, 1944-cü ildə 93 yaşında vəfat etmişdir, ancaq həmin ömrün altmış ilini gənc nəslin tərbiyəsinə həsr etmişdir. Onun "Bidayətüt-təlim", "Kifayətüt-təlim", "Nəsihətül-təlim, "Təkmilüs-sərt", "Təhsili-hesab", "Əlifbayi-sövti" kimi on yeddi kitabı var. Həmin kitablar ədəbi-elmi xarakter daşıyır. Kitablarda mənalı nəsihətlər, tərbiyəvi hekayələr, maraqlı təmsillər toplanmışdır. Bu mənada, Rüşdiyyənin fəaliyyət sahəsinə həm də yazıçılıq düşür. Ədəbiyyatımızda Nizami Gəncəvinin "Sirlər xəzinəsi" ilə başlanan və XIX əsrdə Q.B.Zakirin, A.Bakıxanovun, S.Ə.Şirvaninin yaradıcılığı ilə davam edən alleqorik janrın davamçılarından biri də Rüşdiyyədir.

Yazıçının ədəbi fəaliyyətinə qiymət verən C.Xəndan yazır: "Müasir adamlara Rüşdiyyəni sevdirən nədir? Hər şeydən əvvəl, onun ana dilini təlim etmək sahəsindəki fəaliyyətidir. Bu fəaliyyətin böyüklüyü bir də ona görə nəzəri cəlb edir ki, bu irticanın ən qüvvətli bir dövründə özünü göstərmişdir" [3]. Həqiqətən də, güneylilər Rüşdiyyənin ədəbi-pedaqoji fəaliyyətini həmişə yüksək qiymətləndirmişlər. 1945-ci ildə Cənubi Azərbaycanda yaradılan Milli hökumət 1946-cı ilin may ayında Rüşdiyyə haqqında qərar qəbul etmişdir. Həmin qərarda göstərilir ki, onun həyat və yaradıcılığı dərindən öyrənilsin, heykəli qoyulsun və küçələrdən birinə onun adı verilsin. Həmin qərardan sonra heykəltəraş Ərəbzadə onun heykəlini düzəldir. Rüşdiyyənin ədəbi irsi Azərbaycan ədəbiyyatının nadir nümunəsi hesab edilir.

Onun alleqorik hekayələrində dərin məna var. Yazıçı həmin hekayələri uşaqlar üçün yazıb dərsliyinə salmışdır. "Bir aslan ilə iki öküz" hekayəsində göstərir ki, aslan öküzləri yemək istəyir, ancaq onların birləşib aslana hücum

etmələri buna imkan vermir. Belə olduqda aslan onlardan birini aldadıb deyir ki: "- Yoldaşından ayrılıb onu tək və tənha qoysan, əsla səninlə işim olmaz. Yekəbaş öküz aslanın verdiyi vədlərə aldanıb köməyindən ayrıldı. Dərhal aslan fürsəti fövtə verməyib əvvəl o öküzü və sonra onun yoldaşını yırtıb yedi..." [2]. Yazıçının uşaqlar üçün yazdığı belə kiçik hekayələr onlarda milli birlik tərbiyəsini yaradırdı. Sonradan böyüyüb yaşa dolan uşaqlar həmin hekayənin təsiri ilə sağlam düşüncəyə sahib olurdular.

Başqa bir miniatür hekayəsində yazıçı yersiz arxayınlığı tənqid edərək "Bağa ilə Dovşan" hekayəsini danışır. Onlar iti yürüməkdə bəhsə çıxırlar. Dovşan iti qaçışına arxayın olub yatır, Tısbağa da ləng yerişindən qorxaraq cəhd edir. Nəticədə, ləng gedən Tısbağa iti qaçan Dovşana qalib gəlir [2]. Yazıçının bu hekayəsində də dərin siyasi məzmun var. Öz tarixi keçmişinə və təbii sərvətlərinə arxayın olan İran qabaqcıl dünyanın qanunları ilə yaşayan və heç bir tarixi, sərvəti olmayan ölkələrdən çox geri qalmışdır.

"Maral" hekayəsində yazıçı daha dərin əxlaqi-estetik məsələlərə toxunur. Ayaqlarının nazikliyindən utanıb, buynuzlarının böyüklüyü ilə fəxr edən Maral ovçulara rast gəlir. Nazik ayaqları onu təhlükədən qurtarır, ancaq meşədə buynuzlarını ağaca ilişdirib, xilas ola bilməyən Maral fikrində yanıldığını başa düşür: "Ayaqlarım məni səhrada düşmən əlindən qurtardı, lakin məmnun olduğum buynuzlarım həlakıma səbəb oldu" deyir [2]. Bu hekayənin də uşaqlar üçün böyük tərbiyəvi əhəmiyyəti var: İnsan gərək Allah tərəfindən ona verilmiş hər şeyin qədrini bilsin, haqqı nahaqla qarışdırmasın. Yazıçı bu hekayəni həm də nəzmə çəkmiş və sonra irəli sürdüyü ideyanı belə ifadə etmişdir:

Rəsmidir bu cahanda kim axmaq,
Haqqı nahəqq gördü, nahəqqi həqq [2].

Rüşdiyyə "Köpəklər və Tülkü" təmsilində də ciddi məsələyə toxunur. Aslanın dərisini didişdirən köpəklərə Tülkü deyir ki, sağ olsaydı, indi siz onun ağzında olardınız. Düşündürücü olan bu miniatür təmsildə yazıçı ciddi həyat hadisəsinə işarə edir, yəni "yıxılana balta vuran çox olar" [2].

Yazıçı "İki xoruz" hekayəsində yenə də yersiz qürrələnmədən bəhs edir və yazır ki, iki xoruz döyüşdü və sonra qalib gələn xoruz daşın üstünə çıxıb qürrələnəndə "yırtıcı quşlardan biri şığıdı və onu qapıb getdi" [2]. Yazıçının məğrurluq haqqında belə düşüncələri həm də müqəddəs Quran ayələrindən gəlirdi. Müqəddəs kitabda da yazılıb ki, Allahın özünü dartan adamlardan xoşu gəlməz.

Rüşdiyyə təmsillərində elə incə məqamlara toxunur ki, həmin məqamlar indiyədək xalq arasında zərbi-məsəllərə çevrilmişdir. Kiçik bir İsrail dövlətinin bütün islam dünyasına qarşı durmasını, zəif bir Ermənistanın cəsarət edib Azərbaycana hücum etməsini təhlil edənlər son məqamda bu qənaətə gəlirlər ki, "arxalı köpək qurd basar". Yəni həqiqətdə İsraillə, Ermənistanla vuruşanlar onun arxasında dayanan, ABŞ, Rusiya kimi nəhəng "qurdlarla" vuruşur. Yazıçı bu siyasi həqiqəti özünün "Köpək və Qurd" təmsilində vermişdir. Qurdun dalınca qaçan Köpək hünərindən qürrələnir. bu vaxt qurd çevrilib ona deyir ki, "mən sənə arxa durub gələn o adamdan qorxuram" [2]. Bu sözlə də miniatür hekayənin əsas ideyası aydın olur.

Rüşdiyyə "Köpək və çaylan" hekayəsində artıq tamahın pis nəticələr verəcəyini anladır. Köpək ağzında ət çaya girir və çayda əksini görəndə istəyir ki, sudakı əti də götürsün. Bu vaxt ağzındakı ət suya düşür və onu Çaylan aparır. Beləliklə, Köpək əlində olan qismətini itirir.

"İnsan və Aslan" hekayəsində Rüşdiyyə hökmranlıq məsələsinə toxunur. İnsan və Aslan bir rəsmə baxırlar və həmin şəkildə insan aslanı boğur. Bunu Aslana göstərən İnsan qürrələnir və onun həqarətinə qarşı Aslan belə cavab verir ki, "əgər aslanlar dəxi insan oğlu təki rəsm elmini bilmiş olsaydılar, o vaxt hansı bir insan aslanı boğa bilərdi" [2]. Yazıçının bu ideyası da islam fəlsəfəsindən qaynaqlanır. İslam müqəddəsləri həmişə iddia edib ki, insanların bir-birindən üstünlükləri elmdədir.

"Şir və Siçan" təmsilində Rüşdiyyə yaxşılığın heç vaxt itməyəcəyini uşaqlara başa salmaq istəyir. şir bir dəfə Siçanı yeməyib, ona yaxşılıq edir. bunun müqabilində bir gün tora düşən Şirə də Siçan yaxşılıq edir və toru kəsib onu xilas edir. belə süjetlərlə yazıçı insanlara başa salmaq istəyir ki, hər kəs öz əkdiyini biçir. İnsan nə edirsə, o da qarşısına çıxır. Bu fikrini yazıçı "Dözümsüz Aslan" hekayəsində bir qədər dərinləşdirmiş və rəftarın həmişə xoş olmasını nəzərə çarpdırmışdır. Hekayənin məzmunu belədir ki, Aslan yatanda bir çəyirtkə onu əsəbiləşdirir və bu halı görən Tülkü onun hərəkətlərinə gülür. Bundan qəzəblənən Aslan deyir: "Ey Tülkü, məni titrədən çəyirtkənin özü yox, onun təhqiredici hərəkət və rəftarıdır" [2]. Həqiqətən də, cəmiyyətdə bəzən ləyaqətsizlərin pis rəftarı insanları əsəbiləşdirir. Yazıçının özü də belə ictimai-siyasi mübahisələrdə çox əziyyət çəkib, əsəbiləşmişdir.

Rüşdiyyənin miniatür təmsilləri dövrün siyasi əhval-ruhiyyəsini özündə ehtiva edir. onun süjetlərində dərin ictimai məna var. Məsələn, belə bir süjetinə nəzər salaq: maral xəstələnir və ona çoxlu heyvan baş çəkməyə gəlir. Gələn heyvanlar ətrafda olan bütün otları yeyib qurtarır və Maral sağalanda yeməyə ot tapa bilməyib ölür. Bu süjet XIX əsrdə imperialistlərin yardım altında İrana gəlməsini və onun sərvətini talan etməsini göstərir. Yaxud başqa bir süjetini götürək: Öküzün buynuzunda oturan milçək deyir ki, ağırlığım sənə əziyyət verəndə xəbər ver, gedim. Öküz deyir ki, buynuzuma qonduğundan xəbərim olmadığı kimi, uçub getməyindən dəxi xəbərim olmayacaqdır [2]. Belə süjetlər ona işarədir ki, ölkənin başçıları – "öküzlər"in üstlərinə kimlərin qonduğunu hiss etmirlər. Belə dərin mənalı, ictimai motivli hekayələr Rüşdiyyənin kitablarında çoxdur.

Rüşdiyyənin bədii nəsri onun pedaqoji fəaliyyəti ilə bağlı idi. Ona görə də, yazıçının kitablarında daha çox nəsihətlərə, atalar sözlərinə rast gəlirik. Həmin nəsihətlərdə elmin qiymətləndirilməsindən, xeyirxahlığın uca tutulmasından, xalqın mənafeyinin şəxsi mənafedən üstün olmasından, insanların mənəvi zənginliyindən bəhs edilir.

Rüşdiyyə həm də Azərbaycan folklorunun təəssübkeşlərindən idi. Kitablarında çoxlu el məsəlləri, atalar sözləri toplamışdı: bir gül ilə bahar olmaz, qonşuya ümid olan şamsız qalar, hər zadın təzəsi, dostun köhnəsi, özgəyə quyu qazan özü düşər, xain heç zaman artmaz; bu günün işini sabaha qoyma və s.

Rüşdiyyənin bədii nəsrinin ən gözəl xüsusiyyətlərindən biri də odur ki,

yazıçı əsərlərini sadə Azərbaycan dilində, uşaqların anlaya biləcəyi üslubda yazırdı. Onun seçdiyi mövzular, irəli sürdüyü ideyalar xalqın maarifləndirilməsinə xidmət edirdi. Maarifləndirmə isə əhalidə yeniyetmə dövrlərindən başlamalıdır. Bir pedaqoq kimi, Rüşdiyyə bilirdi ki, uşaqları elmə, təhsilə həvəsləndirmək, onlarda maraq oyatmaq lazımdır. Əgər belə olmasa onlar elmə maraqlarını itirər və mədəni-maarif işlərinə meyl etməzlər. Ona görə də, uşaqların zövqünü oxşaya biləcək duzlu-məzəli təmsillər yazırdı. Təmsillərin həcmi də çox olmurdu ki, uşaqların zehni yorulmasın.

Həmin əsərlərdə biz Rüşdiyyənin böyük sənətkarlığını görür və bir pedaqoq kimi şəxsiyyətinin möhtəşəmliyini seyr edirik.

## ƏDƏBİYYAT


1. Əliyeva L. Klassik Azərbaycan bədii nəsrində hekayə janrı. Bakı: BDU, 2009, 68 s.
2. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. III c. Bakı: Elm, 1988, 552 s.
3. İbrahimov S. Klassik Azərbaycan ədəbiyyatı. Bakı: MBM, 2009, 400 s.
4. Güney Azərbaycan: tarixi, siyasi və kulturoloji müstəvidə. Bakı: Azərnəşr, 2010, 172 s.


## ПРОСВЕТИТЕЛЬСТВО В ПРОЗЕ РУШДИЙЕ


**А.Ю.АБУШОВА**


## РЕЗЮМЕ


Литературное наследие Рушдийе считается редким образцом творчества в азербайджанской поэзии. В ее баснях имеется глубокий общественный смысл. В таких баснях, как «Пес и змея», «Лев и мышь», «Нетерпеливый лев», «Человек и лев» показывается, как можно быть наказанным за алчность, что власть не вечна, а интересы народа надо чтить выше собственных. Она открыла в 1893 году «Национальную школу Рушдийе».



**Ключевые слова:** басня, просветительство, молодое поколение, школа, учебник, рассказ


## ENLIGHTENMENT IN RUSHDIYE PROSE


**A.Y.ABUSHOVA**


## SUMMARY


Literary heritage of Rushdiye is considered to be a rare example of creativity in the Azerbaijani poetry. Her fables have deep social meaning. Her such fables as "The Dog and the Snake," "The Lion and the Mouse," "The Eager Lion," "The Man and the Lion" show how one can be punished for greed, that power is not eternal, but the interests of the people should be honored above their own. She opened “Rushdiye National School” in 1893



**Key words:** fable, enlightenment, the younger generation, school, textbook, story